AZpress.AZ - VİDEO-FOTO İNFORMASİYA AGENTLİYİNİN XƏBƏR SAYTI




**Valyuta məzənnələri** 03.12.2018

**USD :** 1.7000

**EUR :** 1.9496




Rəqəmlərin təsdiqlədiyi gerçəklər - Azər Həsrət

03.12.2018

# Bu xəbəri paylaş

Oktyabrın sonunda Ukraynada bir səfərdə olduğum haqqında yazmışdım. Əsas icraçısı Almaniyanın Analitika və Siyasi Dialoq İnstitutu və maliyyələşdirəni Almaniya Xarici İşlər Nazirliyi olan bir layihə çərçivəsində idi səfər. Donbasda meydana çıxan münaqişə və bölücülük sonucu əhalinin bir qisminin köçkünə çevrilməsini yerində görüb tanış olmuşduq. İstər Kiyevdə, istərsə də bölücü-işğalçıların nəzarəti altındakı Donetskin lap yaxınlığında yerləşən Kramatorsk şəhərində olarkən həm görüşlər, həm də seminarlar sonucu xeyli maraqlı bilgi toplamışdıq. O bilgilər sırasında Miqrasiya Siyasətinin İnkişafı Mərkəzinin (Vyana) baş layihə müdiri Violeta Vagnerin təqdimatında səslənən rəqəmlər diqqətimi çəkmişdi və qərara almışdım ki, bu təqdimat haqqında ayrıca yazı yazım.


SON XƏBƏRLƏR


Ağcabədi rayonunda Beynəlxalq Əlillər Günü qeyd edildi + FOTOLAR ( AZpress.AZ - Mais Ibrahimov, Ağcabədi )
3.12.2018 21:12


ADAU-da "Akademik Cəlal Əliyev və bioloji müxtəlifliyin genetic ehtiyatları" mövzusunda konfrans keçirilib (+FOTOLAR)
3.12.2018 21:08


QARLI QIŞIN SİMFONİYASI - Mənzərə Sadıqova yazır..
3.12.2018 20:55


Oyuncaqların üzərində iynələr, əlləri bağlı... – Bakıda tapılan cadu əməli (+VİDEO)
3.12.2018 20:27


Bakıda dəhşətli qəza: dörd nəfər öldü
3.12.2018 20:12


Külli miqdarda narkotik vasitə aşkar edildi (+ViDEO)
3.12.2018 20:10


Bakıda haker iş başında yaxalandı
3.12.2018 19:56


Dövlət Komissiyasından Dilqəm və Şahbazla bağlı AÇIQLAMA
3.12.2018 19:30


Rza Rzayevlə məktəb direktoru arasında baş verən insidentlə bağlı cinayət işi başlanıb
3.12.2018 19:11


Azərbaycanlı müğənni mağazadan aldığı paltarın pulunu verməyib (+FOTO)
3.12.2018 18:59


Hər bir fiziki şəxs gömrük sərhədindən keçərkən bunları bilməlidir (+ViDEO)
3.12.2018 17:02


Abşeronda Beynəlxalq Əlillər Günü qeyd olunub (+FOTOLAR)
3.12.2018 16:50



Bu yazının yazılmasına səbəb təqdimatın özüylə bərabər layihədə iştirak edən bir erməni qızının fikirləri oldu həm də. O haqda sonda danışarıq. İndi isə təqdimatda diqqətimi çəkən bəzi rəqəmlər haqqında.

Xanım Vagnerin təqdimatından öyrəndik ki, keçmiş Sovet ölkələrindən Rusiyaya davamlı işçi köçü var. Rəqəmlər də kiçik deyil. Əlbəttə, bizim üçün daha maraqlı olan Azərbaycan, eləcə də digər Qafqaz ölkələridir.

Vagnerin təqdimatına görə, 2017-ci ildə Azərbaycandan Rusiyaya ümumilikdə 33 min 828 nəfər köç edib. Ermənistandansa daha çox: 36 min 180 nəfər. Gürcüstan bu məsələdə "geridə" qalır: 6 min 787 nəfər.




Təqdimatdan bir kəsim

Eyni dövrdə Avropaya Azərbaycandan 6 min 338, Ermənistandan 7 min 223, Gürcüstandan isə 10 min 100 nəfər köçüb.

Bu bilgilərin mənbəyi olaraq xanım Vagner Rusiya Daxili İşlər Nazirliyi və EuroStat-ı göstərir.


Lüt soyundurub, saçlarımı qırxdılar və...
3.12.2018 16:34


3 gün 3 gecə toy... - "Lotu Quli"nin ailəsində...(+ViDEO)
3.12.2018 16:21


"Əgər azadlığa çıxsam..." - Fədayə Laçının son sözü...
3.12.2018 16:08


Rəqəmlərin təsdiqlədiyi gerçəklər - Azər Həsrət
3.12.2018 15:48


Efirdəki musiqi və ana dilimiz... - Azər Həsrət
3.12.2018 15:39


Azərbaycanlı deputatlar MDB Parlamentlərarası Assambleyasının iclasında iştirak ediblər (+FOTOLAR)
3.12.2018 15:07


"Ər axtarıram" - Gənc qızların gündəmdə olan statusları...
3.12.2018 14:52


Azərbaycanın aldığı son model raketlərin imkanları...
3.12.2018 14:43

Arxivə keçid >>>






Belə baxanda bu rəqəmlər özlüyündə bəlkə də ciddi bir şey demir. Amma faizlərə çevirəndə bəlli olur ki, müqayisədə Azərbaycan olduqca əlverişli durumdadır. Beləliklə, xanım Vagnerin təqdimatından əldə etdiyimiz bu rəqəmləri hər üç ölkənin əhalisinin sayına əsaslanaraq nəzərdən keçirək.
Azərbaycan əhalisi təxminən 10 milyondur. Ermənistan əhalisi isə 3 milyon. Gürcüstan 3,9 milyonluq əhaliyə sahibdir. (A.H. – BMT-nin rəsmi rəqəmlərinə əsasən.)
Bu rəqəmlərə əsaslansaq belə anlaşılır ki, 2017-ci ildə Azərbaycan əhalisinin hər 100 min nəfərindən cəmi 338-i Rusiyaya köç edib. Ermənistandan isə hər 100 min nəfərin 1206-sı Rusiyaya köçüb. Gürcüstanda bu rəqəm hər 100 min nəfər üçün 174 nəfər olmaqla ən aşağıdır. Bu da səbəbsiz deyil. Çünki Gürcüstanın Rusiyayla problemlərinin olması gürcülərin daha çox Avropaya üz tutmasına səbəb olur.
Avropadan söz düşmüşkən, o coğrafiyaya 2017-ci ildə hər 100 min nəfərə Azərbaycandan 63, Ermənistandan 240, Gürcüstandan isə 259 nəfər köç edib.
Göründüyü kimi, Azərbaycanın əhalisi digər ölkələrdən bir neçə dəfə artıq olsa da ölkəni həm Rusiya, həm də Avropa istiqamətində tərk etmək istəyənlərin sayı dəfələrlə azdır. Bu isə ondan xəbər verir ki, ölkədəki ictimai-siyasi durum, sabitlik və rifah halının daha üstün olması insanların ölkədə qalmağa üstünlük verməsinə səbəb olur.
Azərbaycanın qonşu dövlətlərlə müqayisədə daha sabit və daha təhlükəsiz olmasını xanım Vagnerin təqdimatındakı valyuta rəqəmləri də təsdiqləyir. Gəlin, indi də işçi köçkünlərin xaricdən öz ölkəsinə göndərdiyi pulun ümumi daxili məhsulun həcminə nisbətinə nəzər salaq.
Beləliklə öyrənirik ki, 2017-ci ildə Ermənistana xaricdəki köçkünlərdən 1 milyard 538 milyon dollar pul daxil olub. Azərbaycana 1 milyard 133 milyon, Gürcüstana isə 1 milyard 794 milyon. Göründüyü kimi, ən az pul Azərbaycana daxil olub, ən çox isə Gürcüstana.

ICMPD International Centre for Migration Policy Development

3B. Labour Migration – Remittances, 2017

Source: World Bank, Open Data; Knomad.org (UZB)

| Country | Remittances, billion USD | Remittances, % from GDP |
|---|---|---|
| Armenia | 1,538,737 | 13,34% |
| Azerbaijan | 1,133,371 | 2,78% |
| Belarus | 1,253,800 | 2,3% |
| Georgia | 1,793,945 | 11,83% |
| Kazakhstan | 355,001 | 0,22% |
| Kyrgyzstan | 2,485,778 | 32,86% |
| Moldova | 1,639,660 | 20,17% |
| Russian Federation | 8,234,000 | 0,52% |
| Tajikistan | 2,255,439 | 31,56% |
| Turkmenistan | 10,305 | 0,02% |
| Ukraine | 12,132,000 | 10,82% |
| Uzbekistan | 2,695,000 | 3,9% |
| **France** | **24,885,137** | **0,96%** |

Violeta Wagner | Easter Europe and Central Asia | Kiev, 31.10.2018 20

**İşçi köçkünlərin öz ölkələrinə göndərdiyi pullar**

Belə bir durum yaxşıdırmı? İlk baxışdan yaxşı görünmür. Necə də olsa, biz niyə xaricdən daha az pul almışıq? Yaxşı olmazdımı ki, dünyada daha geniş təmsil edilən





SİZİN
REKLAM
BURADA...






SİZİN
REKLAM
BURADA...

Azərbaycanlılar öz ölkələrinə daha çox pul köçürəydilər? İlk baxışdan bunun yaxşı olacağını deyə bilərik.
Amma yaxşı olmazdı. Çünki belə pulların çox gəlməsi ölkənin xaricdən asılılığı deməkdir. Eyni zamanda ölkə insanlarının rifah halının aşağı olmasının, dövlətin də problemləri həll etməkdə zəifliyinin göstəricisidir.
Bu rəqəmləri faizə çevirəndə durumun kimin üçün yaxşı, kimin üçün pis olmasını daha əyani şəkildə görmək olar.
Xanım Vagnerin Dünya Bankına əsaslanaraq hesabladığı faizlərə görə, Ermənistanda ÜDM-nin 13,34 faizini məhz xaricdəki işçi miqrantların köçürmələri təşkil edir. Gürcüstanın işçi miqrantları isə öz həmvətənlərinin ÜDM-nun 11,83 faizini təmin edir. Azərbaycana gəlincə, bu rəqəm dəfələrlə aşağıdır: cəmi 2,78 faiz.
Belə bir durum nə deməkdir? Öz işinin ustası olan xanım Vagner izah edir ki, bu faizlər nə qədər aşağı olarsa, ölkə üçün xarici faktordan asılılıq riski də bir o qədər aşağı olar. İştirakçılardan birinin sualına cavab olaraq o qeyd etdi ki, əgər bu rəqəm 10 faizdən yuxarıdırsa, ölkənin çox ciddi problemi var deməkdir. Yəni günün birində xaricdəki işçi miqrantların öz ölkələrinə köçürmələri problemə çevrilərsə, daxildə sabitlik pozular. Yaxud da xarici güclər bu faktordan ölkəyə təzyiq üçün istifadə edə bilər. Ona görə də dünyanın aparıcı dövlətləri belə asılılıqdan uzaq qalmağa çalışırlar.
Yeri gəlmişkən, keçmiş Sovet ölkələri arasında bu məsələdə ən acınacaqlı durumda olan Qırğızıstan və Tacikistandır. Uyğun olaraq onların ÜDM-nun 32,86 və 31,56 faizi xaricdən daxil olur…
Bütün bu rəqəmləri sadə dildə izah edərsək, hər bir Azərbaycanlının 100 dollarının cəmi 2,8-i xaricdən gəlir. Gəlməsə də biz Azərbaycanlılar ciddi sıxıntı hiss etmərik. Bir gürcünün aylıq 100 dollarınınsa 11,83 dolları xaricdən gəlir. Gəlməsə, hardasa sıxıntı hiss etməyə başlarlar. Yəni bu o deməkdir ki, gürcü vətəndaşı il ərzində 142 dollar geri düşə bilər ki, bu da kiçik rəqəm deyil.
Ermənistan insanı isə aylıq 100 dollarının 13,34 dollarını almaqdan məhrum olacağı təqdirdə il ərzində 160 dollar əskiyi olacaq ki, bu da iqtisadi problemlər içində çabalayan ölkə vətəndaşı üçün olduqca böyük rəqəmdir.
Uyğun olaraq biz Azərbaycanlılar xaricdən daxil olan bu puldan məhrum olarsaq demək olar ki, heç bir sıxıntımız olan deyil. Bu vəsait bizim hər fərdimizin illik xərclədiyi 1200 dolların cəmi 34 dollarını təşkil edir…
Violeta Vagnerin təqdimatında Avropa Birliyi ölkələrində siyasi sığınacaq almaq istəyənlərlə bağlı da maraqlı rəqəmlər var.
2017-ci ildə AB ölkələrində 11135 Gürcüstan, 7685 Ermənistan, 4780 Azərbaycan vətəndaşı siyasi sığınacaq üçün müraciət edib. Göründüyü kimi, Azərbaycan bu məsələdə ən yaxşı durumdadır. Hələ ölkələrin əhali sayını nəzərə alıb bu rəqəmləri faizə çevirəndə ümumiyyətlə durum bir neçə dəfə Azərbaycanın xeyrinə olur. Bu isə Gürcüstan və Ermənistanda siyasi durumun, vətəndaşların hüquq və azadlıqlarının daha yaxşı təmin edildiyi haqqında manipulyativ iddiaları alt-üst etmək üçün yararlıdır…




Dekabr 2018

| Mo | Tu | We | Th | Fr |
|---|---|---|---|---|
| 3 | 4 | 5 | 6 | 7 |
| 10 | 11 | 12 | 13 | 14 |
| 17 | 18 | 19 | 20 | 21 |
| 24 | 25 | 26 | 27 | 28 |
| 31 | | | | |

MÜƏLLİFLƏRİMİZ (son 10-luq)

»» **MAİS İbrahimov (AĞCABƏDİ)**
»» Ağcabədi rayonunda Beynəlxalq Əlillər Günü qeyd edildi + FOTOLAR ( AZpress.AZ - Mais Ibrahimov, Ağcabədi )

»» **Ağaddin Babayev ( Lənkəran )**
»» "Dini radikalizm, zərərli vərdişlər və onların fəsadları"... +FOTOLAR (AZpress.AZ – Ağaddin Babayev)

»» **Rüstəm İsmayılov**
»» Bakıda Vinq Çun üzrə beynəlxalq seminar verdi +FOTOLAR ( AZpress.AZ - Rüstəm İsmayılov )

»» **AZpress.AZ**
»»